# BİBLİOQRAFİK TƏSVİRƏ DAİR İLK MİLLİ DÖVLƏT STANDARTI

Sənubər MUSTAFAYEVA
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının baş müəllimi, BDU, BAKI, Azərbaycan*
mustafayeva.s@yandex.ru

***Первый национальный стандарт по библиографическому описанию***
***Резюме:*** *В данной статье рассказывается о первичном национальном стандарте по библиографическому описанию. Основная цель этой статьи заключается в том чтобы показать значение национального стандарта, а также изложить общие установленные требования и правила составления библиографического описания документа, набор областей и елементов библиографического описания, последовательность их расположения, применение предписанной пунктуации и сокращения слов.*
***Abstract:*** *This article describes the primary national standard for bibliographic description. The main purpose of this article is to show the value of the national standard, and provide the general statutory requirements and rules of bibliographic description of the document, a set of elements and areas of the bibliographic description, sequence of their location, use prescribed punctuation, and abbreviations of words.*

***Açar sözlər:*** *Milli Standart, biblioqrafik təsvir, biblioqrafik təsvirin əsas qaydaları, birsəviyyəli biblioqrafik təsvir, çoxsəviyyəli biblioqrafik təsvir.*
***Ключевые слова:*** *Национальный стандарт, библиографическое описание, основные правила библиографического описания ровневое библиографическое описание, многоуровневое библиографическое описание.*
***Keywords:*** *National standard bibliographic description, the basic rules of bibliographic description level-bibliographic description, multi-level bibliographic description.*

**Giriş:** "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası prezidentinin Sərəncamının ardınca "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiqlənməsi Azərbaycanda kitabxana işi sahəsində dövlət qayğısının ən bariz nümunəsi oldu. XXI əsrin qlobal informasiya mühiti Azərbaycanda kitabxana işinin inkişafında yeni meyarların formalaşmasını, modern informasiyalaşdırma imkanlarının təmin edilməsini və gücləndirilməsini tələb edir. Məhz dünyada qlobal problemə çevrilən əhalinin informasiya təminatı ölkəmiz üçün bu gün aktuallıq kəsb edir. Azərbaycanın müasir dövrdə davamlı inkişafını təmin etmək məqsədilə ölkənin güclü intelektual potensialı yaradılmalı, informasiya cəmiyyəti quruculuğu şəraitində ölkənin kitabxana-informasiya şəbəkəsi vasitəsilə əhalinin bütün təbəqələrinin müxtəlif biliklərə və informasiyaya tələbatı tam ödənilməlidir.



Müasir dövrdə kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, zaman və məkandan asılı olmayaraq hər bir istifadəçinin və cəmiyyətin hər bir qurumunun operativ olaraq dolğun informasiya ilə təmin edilməsi kitabxanaların qarşısında duran əsas vəzifədir. Elm, mədəniyyət və təhsilin informasiya təminatı məhz İKT-dən (informasiya kommunikasiya texnologiyaları) istifadə etməklə və elektron məlumat bazalarının yaradılması ilə mümkündür.

Kitabxana-informasiya proseslərinin avtomatlaşdırılması ayrı-ayrı proseslərdən başlayaraq, kompleks sistemlərə, daha sonra inteqral və şəbəkə sistemlərə qədər inkişaf edərək yüksək texnlogiyalara əsaslanır. Bu texniki-texnoloji nailiyyətlər içərisində elektron kataloqlaşdırmanın metod, vasitə və texnologiyaları vacib yer tutur. Müasir kitabxana-informasiya texnologiyalarının inkişaf istiqamətləri içərisində və texniki-texnoloji cəhətdən daha təkmilləşdirilmiş səviyyəyə çatan məhz elektron kataloqlardır. Elektron kataloqlaşdırma sahəsində yüksək səmərəli sistem və tətbiqinin proqram zərfləri işlənmişdir. Elektron kataloqlaşdırma sahəsində mühüm nailiyyətlərdən biri də milli, beynəlxalq və normativ kataloqlaşdırma mərkəzlərinin yaradılmasıdır. İndi dünyanın milli və iri sahəvi kitabxanalarının xeyli hissəsində kartoçka kataloqu elektron kataloqla əvəz edilmişdir.

Elektron kataloq ənənəvi kataloqların təqdim etdiyi bütün xidmət növlərini əhatə etməklə, əlavə axtarış imkanlarına malikdir. Əgər xidmət imkanları ənənəvi kataloqa nisbətən azdırsa, belə kataloq səmərəli deyildir. XXI əsrin başlanğıcında yeni informasiya texnologiyalarının təsiri getdikcə daha surətlə insan fəaliyyətinin bütün sahələrində əsas müəyyənPedici amilə çevrilməkdədir. Qlobal informasiya şəbəkələrnin formalaşması nəticəsində yeni texniki və iqtisadi imkanlar açılmış, vahid infiormasiya məkanı yaranmışdır. Dünyanın istənilən nöqtəsində yaşayan insanların bütün resurslardan istifadəsini təmin ctmək mümkündür. Ölkəmizdə gedən informasiyalaşdırma və telekommunikasiyaların inkişafı informasiyalaşdırılmış cəmiyyətə keçidin, eləcə də respublikamızın dünya informasiyalı cəmiyyətlərini və sərvətlərini yaratmağa imkan verməkdədir. Bütün bunlar əsasən kitabxanalarda texlogiyaya əsaslanan müxtəlif növ kataloqlar və kataloqlarda əks etdirilən biblioqrafik təsvirlər vasitəsilə mümkündür.

**Məsələnin qoyuluşu:** Bibilioqrafik təsvir – sənəd haqqında biblioqrafik məlumatları əks etdirir. Bu məlumatlar sahə və ünsürlərin tamlığını və ardıcıllığını təyin edən, sənədlərin ümumi əlamətlərinin eyniləşdirilməsi üçün nəzərdə tutulan müəyyən qaydalar üzrə düzülür.

Biblioqrafik təsvir biblioqrafik yazının əsas hissəsini təşkil edir. Biblioqrafik yazı – müəyyən bir sənədin analitik-sintetik işlənməsi nəticəsində onun məzmunu və forması haqqında tam və dəqiq məlumat verir. Biblioqrafik yazıya təsvirin başlığı, indeksləşdirmə terminləri (təsnifləşdirmə indeksi və

predmet rubrikaları), annotasiya (referat), sənədin mühafizə şifrəsi, əlavə biblioqrafik yazılar haqqında məlumatlar, sənədin emalının sonuncu tarixi, xidmət xarakterli məlumatlar aid edilir.

Biblioqrafik təsvirin tərtibi metodikası uzun bir yol keçmişdir. Kitab təsvirinə ehtiyac yazılı əsərlərin bir yerə toplanması ilə meydana gəlmişdir. Hər bir növ kataloqun təşkili biblioqrafik yazıların qruplaşdırılmasından ibarətdir. Kataloqlarda kitabxanada saxlanılan konkret nəşrlər əks etdirilir. Bütün dövrlərdə biblioqrafik təsvirlər standartlaşdırmanın obyektini təşkil etmişdir. İlk kataloqların yaranması müxtəlif dövrlərin təsvir qaydalarına əsaslanmışdır. Hazırda isə biblioqrafik təsvirlər müəyyən standartlar üzrə tərtib edilir. Müasir dövrdə dünyanın müxtəlif ölkələrində biblioqrafik təsvirə dair 3 standart tətbiq edilir: biblioqrafik təsvirin Beynəlxalq standartı (İSBD), kataloqlaşdırmanın İngilis-Amerika qaydaları (AASR 2) və maşınla oxunan kataloqların müxtəlif MARC formatları. (8, s.41) İSBD (Biblioqrafik təsvirin Beynəlxalq standartı)- daha universaldır və ondan bütün dünyada istifadə edilə bilər. AASR 2 standartı (İngilis-Amerika qaydaları) ingilis dilli ölkələrdə tətbiq edilir.

Müasir informasiya dünyasında təxminən 50-dən çox ölkədə milli formatlar hazırlanmışdır ki, onların da ümumiləşdirilmiş adı MARC adlandırılır. Hər bir ölkənin ixtisasrla adının yazılışını əlavə etməklə formatın hansı ölkəyə aid olduğu bildirilir. Məsələn: USMARC (ABŞ), CANMARC (Kanada), RUSMARC (Rusiya), AZMARC (Azərbaycan) və s.

Lakin qeyd etmək lazımdır ki, bu formatların tərtibi biblioqrafik təsvirə dair dövlət standartlarına əsaslanır ki, həmin standartların da Beynəlxalq biblioqrafik təsvir qaydalarına əsaslanması vacib şərtlərdən biridir. 1968-ci ildə Rusiyada kataloqlar üçün dövlət standartlarının layihələri təsdiq edilmiş və əsas biblioqrafik təsvir qaydaları bütün kitabxanalar üçün məcburi hesab edilmişdir. 1970-ci il yanvarın 1-dən etibarən kitabxanalarda bir sıra dövlət standartları tətbiq edilməyə başlamışdı. 1969-cu ildən etibarən isə Beynəlxalq Biblioqrafik Təsvir qaydalarının hazırlanmasına səy göstərilmişdir. Bu dövlət standartlarının qarşısında bütün kitabxanalar, idarələr, elmi idarə və texniki informasiya mərkəzləri, həmçinin də nəşriyyat üçün vahid təsvir qaydalarını özündə əks etdirmək vəzifəsini qoyurdu.

Rusiyanın və Respublikamızın kitabxanalarında on ilə yaxın bir müddətdə tətbiq edilən "Çap əsərlərinin biblioqrafik təsvir qaydalar" (7.1-76) dövlət standartı xüsusi mərhələ təşkil etmişdir. 7.1-76 dövlət standartında biblioqrafik təsvirin 7 sahəsi müəyyənləşdurilmişdir.

XX əsrin 70-ci illərindən biblioqrafik təsvirin standartlaşdırılması problemi ilə dünyanın ən görkəmli mütəxəssisləri məşğul olmuşlar. Mütəxəssislərin böyük bir qrupu beynəlxalq kitabxana cəmiyyətləri və idarələri kataloqlaşdırma bölmələrinə (İFLA) cəlb olunmuşlar. Beynəlxalq kataloqlaşdırma işində Rusiya mütəxəssisləri də fəal iştirak etmişlər. İFLA tərəfindən hazırlanan sənədlər silsiləsində xüsusən biblioqrafik təsvirin quruluşu, biblioqrafik təsvirin mətni,



biblioqrafik ünsürlər konkretləşdirilmiş və bu da bir sıra ölkələrdə milli təsvir qaydalarının yaradılması və yeniləşməsi üçün bazaya çevrilmişdir.

Bu məqsədlə 1984-cü ildə Rusiyada 7.1-84 "Sənədlərin biblioqrafik təsvir qaydaları" adlı yeni Dövlət standartı hazırlanıb çap edilmişdir. 7.1-84 dövlət standartında təsvirlərin funksiyaları dəqiqləşdirilmiş, onun əsas növləri və quruluşu müəyyənləşdirilmişdir. Standartda ilk dəfə olaraq biblioqrafik təsvirlər obyektinə görə 3 qrupa bölünmüşdür: monoqrafik təsvirlər, toplu təsvirlər, analitik təsvirlər. Standartda biblioqrafik təsvirin 7 sahəsi müəyyənləşdirilmişdir.

Qeyd etmək lazımdır ki, 7.1-84 standartı biblioqrafik təsvirə dair dövlət standartlarının üçüncü nəslinə aiddir (7.1-69; 7.1-76; 7.1-84) və standart uzunömürlü olaraq 20 ilə yaxın bir dövr ərzində Rusiyanın kitabxanalarında tətbiq edilmişdir. QOST 7.1-69 "Biblioqrafiya və informasiya nəşrləri üçün çap əsərlərinin təsviri" standartı 7 il, QOST 7.1-76 "Çap əsərlərinin biblioqrafik təsviri" standartı 8 ildən artıq bir dövr ərzində kitabxanalarda tətbiq edilmişdir. Hər bir standarta yenidən nəzər salınması onların Beynəlxalq biblioqrafik təsvir qaydalarına (İSBD) uyğunlaşması ilə əlaqədar idi. 7.1-76 standartı Beynəlxalq biblioqrafik təsvir qaydalarına keçid mərhələsini təşkil etsə də ciddi dəyişikliklərə görə ondan fərqlənirdi. QOST 7.1-84 standartı daha çox Beynəlxalq təsvir qaydalarına yaxşılaşdırılsa da burada bəzi prinsipial fərqlərə yer verilmişdi.(4,s.25)

Buna görə də Rusiyada yeni bir standartın yaradılması əsas məsələ kimi qarşıda dururdu. Bu məqsədlə 2003-cü ildə "Biblioqrafik yazı.Biblioqrafik təsvir" adlı Beynəlxalq Dövlətlərarası standartı təsdiq edilmişdir ki, bunun da əsas məqsədi biblioqrafik yazıların mübadiləsi üçün Rusiya və Beynəlxalq kataloqlaşdırma qaydalarını biri-birinə yaxınlaşdırmaqdan ibarət olmuşdur.

**Məsələnin həlli yolları:**

Son illərdə Respublikada kitabxana işi sahəsində baş verən yeniliklər, xüsusilə informasiya texnologiyalarının tətbiqinin nəticəsində elektron kitabxana və elektron kataloqların yaradılması, milli kitab fondunun surətlə artması, elektron sənəd fondunun artması, cəmiyyətdə baş verən qlobal proseslər ictimai həyatın bütün sahələrinə əhəmiyyətli dərəcədə öz təsirini göstərmişdir. 1991-ci ildə Azərbaycan Respublikası ikinci dəfə öz müstəqilliyini qazanaraq dünya dövlətləri tərəfindən tanınmış, diplomatik münasibətlər yaratmışdır. Artıq öz müstəqilliyini əldə edən Azərbaycan Respublikasında bütün sahələrdə olduğu kimi kitabxana işinin inkişafı sahəsinə dair bir sıra sərəncamlar verilmiş, Dövlət Proqramları qəbul edilmişdir. Bu baxımdan 2013-cü ildə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən qəbul edilən "Biblioqrafik yazı.Bibliorafik təsvir (Ümumi tələblər və tərtib qaydaları)" adlı Dövlət Standartı xüsusi əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının müstəqilliyinə qədər bə ondan sonrakı dövrdə Respublika kitabxanalarında Rusiyada qəbul edilən Dövlət standartları (7.1-69, 7.1-76; 7.1-84) tətbiq edilirdi. Hazırkı dövrdə istər Respublikanın iri elmi kitabxanalarının və Mərkəzləşdirilmiş kitabxana sistemlərinin ənənəvi

kataloqlarında 7.1-84 "Sənədlərin biblioqrafik təsvir qaydaları" adlı Rusiya Dövlət Standartı tətbiq edilməkdədir. Buna görə də 2013-cü ildə Respublikada biblioqrafik təsvirə dair ilk Milli Dövlət Standartının qəbul edilməsi xüsusi əhəmiyyətə malikdir. Burada əsas məqsəq biblioqqrafik yazıların mübadiləsi üçün Azərbaycan və Beynəlxalq kataloqlaşdırma qaydalarını bir-birinə yaxınlaşdırmaqdan ibarət olmuşdur.

Biblioqrafik təsvirə dair Azərbaycan Milli Dövlət standartı bir sıra beynəlxalq standartlara əsaslanaraq tərtib edilmişdir. Məsələn, QOST 7.0-99 "İnformasiya, kitabxana və nəşriyyat işləri üzrə standartlar sistemi. Kitabxana informasiya fəaliyyəti, biblioqrafiya, terminlər və onların təyinatı", QOST 7.5-98 İnformasiya, kitabxana və nəşriyyat işləri üzrə standartlar sistemi. Jurnallar, məcmuələr, informasiya nəşrləri. Çap edilmiş materialın nəşriyyat tərtibi", QOST 7.8-2000 "İnformasiya, kitabxana və nəşriyyat işləri üzrə standartlar sistemi. Biblioqrafik yazı.Başlıq.Ümumi tələblər və tərtibi qaydaları", QOST 7.82-2001 "İnformasiya, kitabxana və nəşriyyat işləri üzrə standartlar sistemi. Biblioqrafik yazı. Elektron resursların biblioqrafik təsviri. Ümumi tələblər və tərtibi qaydaları" və s.

"Biblioqrafik yazı.Biblioqrafik təsvir (Ümumi tələblər və tərtib qaydaları)" adlı Milli Dövlət Standartı 7 bölmədən ibarətdir. Bunlar tətbiq sahəsi, normativ istinadlar, terminlər və onların təyinatı, ümumi müddəalar, birsəviyyəli biblioqrafik təsvirlər, coxsəviyyəli biblioqrafik təsvirlər, analitik biblioqrafik təsvirlər kimi qruplaşdırılmışdır. Bu standart Rusiya Federasiyasının Mətbuat üzrə Komitəsinin Rusiya Kitab Palatası, Rusiya Dövlət Kitabxanası, Standartlaşdırma üzrə "Elmi Texniki informasiya, kitabxana və nəşiyyat işi" Texniki Komitəsi tərəfindən hazırlanmış dövlətlərarası standartının əsasında tərtib edilmişdir.

Standart kitabxanalar, elmi-texniki informasiya orqanları, dövlət biblioqrafiya orqanları, naşirlər, biblioqrafik fəaliyyəti həyata keçirən digər təşkilatlar tərəfindən tərtib edilən sənədlərin təsvirində tətbiq edilmək məqsədilə nəzərdə tutulmuşdur. Standartda biblioqrafik təsvirin tərtib edilməsinin obyekti aşağıdakl kimi xarakterizə edilmişdir: bütün dərc edilən sənəd növləri və müxtəlif daşıyıcılarda dərc edilməmiş sənədlər – kitablar, seriyalı və digər nəşri davam edən resurslar, not, kartoqrafik, audiovizual, təsviri incəsənət, normativ-texniki sənədlər, mikrofilmlər, elektron informasiya resursları, digər üçölçülü süni və təbii obyektlər, sənədlərin tərkib hissəsi, eyni tipli və müxtəlif tipli sənədlər qrupu.

Standarda əsasən biblioqrafik təsvirlər obyektinə görə 3 yerə ayrılmışdır:

1. Birsəviyyəli təsvirlər – bir səviyyədən ibarətdir.
2. Çoxsəviyyəli təsvirlər – iki və daha artıq səviyyədən ibarətdir.
3. Analitik təsvirlər – sənədin tərkib hissəsi haqqında məlumatdan ibarətdir.

Təsvirin ünsürləri məcburi və fakültativ ünsürlərdən ibarətdir. Təsvirdə yalnız məcburi ünsürlər, yaxud məcburi və fakültativ ünsürlər tətbiq edilə bilər. Məcburi ünsürlər sənəd haqqında əsas məlumatları əks etdirir. Onlar istənilən təsvirdə tətbiq edilir. Fakültativ ünsürlər kitab haqqında əlavə məlumatları əks



etdirir. Bu ünsürlər toplusunu biblioqrafik təsviri tərtib edən müəssisə müəyyən edir.

Milli Dövlət standartında biblioqrafik təsvirin 8 sahəsi müəyyənləşdirilmişdir. Sahələr biblioqrafik təsvirdə biri-birindən nöqtə və tire (.-) işarəsi ilə ayrılır. Standartda biblioqrafik təsvirin sahə və ünsürləri aşağıdakı ardıcıllıq üzrə verilmişdir. Sahələr daxilində biblioqrafik təsvirin ünsürləri müəyyənləşdirilmidir ki, hər ünsürün əvvəlində də ona məxsus olan durğu işarəsi tərbiq edilir.

**1. Sərlövhə və məsuliyyətlik haqqında sahə**

Əsas sərlövhə
[ ] Materialın ümumi əlaməti
= Paralel sərlövhə
: Sərlövhəyə aid məlumatlar
Məsuliyyətlik haqqında məlumatlar
/ İlkin məlumat
; Sonrakı məlumat

**2. Nəşr sahəsi**

Nəşr haqqında məlumat
= Nəşr haqqında paralel məlumat
Nəşrə aid məsuliyyətlik haqqında məlumat
/ İlkin məlumat
; Sonrakı məlumat
, Nəşr haqqında əlavə məlumat
Nəşrə aid məsuliyyətlik haqqında əlavə məlumat
/ İlkin məlumat
; Sonrakı məlumat

**3. Xüsusi məlumat sahəsi**

**4. Buraxılış məlumatları sahəsi**

Nəşr yeri, yayımı
İlkin nəşr yeri
; Sonrakı nəşr yeri
: Nəşriyyatın adı, yayımı və s.
[ ] Nəşriyyatın, yayanın və s. funksiyaları haqqında məlumat
, Nəşr tarixi, yayımı və s.
(Hazırlandığı yer
: hazırlayanın adı
,) Hazırlandığı tarix

**5. Fiziki xarakteristika sahəsi**

Materialın xüsusi əlaməti və həcmi
: Fiziki xarakteristika haqqında başqa məlumatlar
; Ölçüsü
+ Qoşma sənəd haqqında məlumat

**6. Seriya sahəsi**

(Seriyanın və seriyaaltının əsas sərlövhəsi
= Seriyanın və seriyaaltının paralel sərlövhəsi
: Seriyanın və seriyaaltının sərlövhəsinə aidməlumatlar
Seriyanın və seriyaaltının məsul şəxsləri haqqında məlumat
/ İlkin məlumat
; Sonrakı məlumat
, Seriyanın və ya seriyaaltının məxsus olduğu seriyalı nəşrin beynəlxalq standart nömrəsi (İSSN)
; Seriyanın və ya seriyaaltının buraxılış nömrəsi

**7. Qeyd sahəsi**

**8. Standart nömrə (və ya onun alternativi) əldə olunma şərtləri sahəsi**

= Açar sərlövhə
: Əldə olunma şərtləri və (və ya) qiyməti
() Sahənin ünsürlərinə aid əlavə məlumatlar (3, s.12-14)

Biblioqrafik təsvirin hər bir sahə və ünsürünün xarakterik xüsusiyyətləri vardır.

**1. Sərlövhə və məsuliyyətlik haqqında sahə.** Sahə təsvirin obyektinin əsas sərlövhəsini, materialın ümumi əlamətini, paralel sərlövhəni, digər sərlövhələri, təsvirin obyektinin nəşri üçün məsuliyyət daşıyan məsul şəxslər və təşkilatlar haqqında məlumatları özündə əks etdirir.

Əsas sərlövhə biblioqrafik təsvirin ilk ünsürü hesab edilərək öz quruluşu etibarilə sadə, yəni bir cümlədən, mürəkkəb yəni bir neçə cümlədən ibarət ola bilər. Əsas sərlövhə bir əsərin adından, yaxud da bir neçə əsərin ümumiləşdirilmiş adından ibarət ola bilər. Öz xarakteri etibarilə əsas sərlövhə tematik, tipik məlumatlardan ibarət ola bilər. Məsələn: İki min beşinci il, Təbriz xalısı

Materialın ümumi əlaməti. Burada təsvirin obyektinə aid edilən materialın növü bildirlir. Məsələn: videoyazı, əlyazması, mətn, xəritələr.Göstərilən terminlərdən yalnız biri seçilir.

Paralel sərlövhə biblioqrafik təsvirin ünsürlərindən biri olaraq kitabın başqa dildə olan sərlövhəsi hesab edilir. Nəşrdə bir və ya bir neçə paralel sərlövhə verilə bilər. Bir qayda olaraq təsvirdə bütün paralel sərlövhələr göstərilir. Məsələn: Kitabxanalar biliklər cəmiyyətində = Библиотеки в обществе знаний.

Sərlövhəyə dair məlumatlar əsas sərlövhəni, həmçinin digər sərlövhələri aydınlaşdıran və izah edən məlumatları, əsərin təyinatını, növünü, janrını, sənədin digər dildən tərcüməsi haqqında məlumatları əks etdirir. Məsələn: Mir Cəlal Paşayev [Mətn ]: biblioqrafiya, dərs vəsaiti və s.

Məsul şəxslər haqqında məlumatlarda biblioqrafik təsvirin obyektini təşkil edən intellektual, bədii və digər xarakterli əsərlərin yaradılmasında iştirak edən şəxslər və təşkilatlar haqqında məlumat əks etdirilir. Məsul şəxslər haqqında məlumatda bütün müəlliflərin soyadı və inisialları (əgər onlar üçdən artıq deyilsə) göstərilir. Nəşrdə dörd, beş və daha artıq məsul şəxsin soyadı verilərsə biblioqrafik təsviri tərtib edən müəssisənin rəyindən asılı olaraq təsvirdə ya



müəlliflərin hamısı, ya da birinci müəllifin soyadı göstərilir, digər müəlliflərin soyadı ixtisar edilərək kvadrat mötərizə içərisində və başq. sözü yazılır.

Digər məsul şəxslər haqqında məlumatda bütün müəlliflərin soyadı göstərilir (əgər hər bir qrup daxilində müəlliflərin sayı üçdən artıq deyilsə). Əgər onların sayı dörddən artıq olarsa, birinci müəllifin soyadı göstərilərək və başq. sözü əlavə edilir.

Tarix Azərbaycandan başlanır [Mətn ]: Milli mədəniyyətimiz, məsubiyyətimiz, dilimiz və ayinlərimiz / Ə.T.Nizammülk, elmi red. R.Ş.Əsədov; red. S.Baxışlı; rəyçi A. Şükürov

**2. Nəşr sahəsi.** Bu sahədə konkret nəşri əvvəlki nəşrdən fərqləndirən xüsusiyyətlər haqqında məlumatları əks etdirilir. Nəşr haqqında məlumatlar müəyyən qayda üzrə ardıcıllıqla göstərilir. Məsələn: Yeni versiya, Təkmil.nəşr, Əlavə ed. variant

Məsul şəxslər haqqında məlumatda konkret kitabın təkrar nəşrində iştirak edən müəlliflərin, həmçinin də idarə və təşkilatların adı qeyd olunur. Məsələn: 4-cü təkmil. nəşr / K.M.Tahirovun red. ilə

**3. Xüsusi məlumatlar sahəsi.** Bu sahə xüsusi daşıyıcılarda çap edilən obyektlərin təsvirində tətbiq edilir. Bunlara kartoqrafik, not sənədləri, seriyalı və digər ardı davam edən resurslar, normativ-texniki sənədlərin ayrı-ayrı növləri, mikroformalar aiddir. Standartlaşma üzrə normativ-texniki sənədlərin təsvirində (standart və texniki şərtlər) xüsusi məlumatlar sahəsində biblioqrafik təsvir tərtib edilən sənədin hansı əvəzinə tərtib edilməsi haqqında , həmçinin də sənədin qüvvədə olma müddəti haqqında məlumat verilir. Məsələn: Texniki şərt-Qüvvədə olma müddəti 01.01-88-dən 01.01.93 qədər

**4. Buraxılış məlumatları sahəsi.** Bu sahədə təsvirin obyektini təşkil edən sənədin nəşr yeri, nəşr tarixi, sənədin hazırlanma yeri həmçinin də nəşriyyatçı, nəşri yayan və hazırlayan haqqında məlumat verilir.

Nəşr yerində sənədin nəşr edildiyi yerin adı yazılır. Nəşr yeri, yəni sənədin nəşr edildiyi şəhərlər, Moskva və Sankt-Peterburqdan başqa bir qayda olaraq təsvirdə adlıq halında verilir. Moskva və Sankt-Peterburq şəhərlərinin adları isə qısaldılmış şəkildə göstərilir. Məsələn: Moskva – M., Sankt-Peterburq – S. Pb.

Dövlət standartına əsasən respublikaların paytaxtlarının adlarının ixtisarına yol verilir. Məsələn: Bakı – Bakı, Kiyev-Kiyev və s.

Buraxılış məlumatları sahəsində nəşr yerindən sonra nəşriyyat və yaxud da sənədi nəşr edən idarənin adı yazılır. Məsələn: Elm, Maarif

Nəşr tarixində sənədin nəşr ili yazılır. Məsələn: B.: Maarif, 2013.

**5. Fiziki xarakteristika sahəsi**. Fiziki xarakteristika sahəsi təsvirin obyektinin fiziki forması, sənədin ölçüsü, illüstrasiya və qoşma materialı haqqında məlumatları əks etdirir. Fiziki xarakteristika sahəsində fiziki vahidlər (ərəb rəqəmləri ilə) və materialın xüsusi əlaməti haqqında məlumat verilir. Məsələn: 2 elektron opt. disk.

Sənədin ölçüsü haqqında məlumatda kitabın hündürlüyünün ölçüsü əks etdirilir.

Sahənin sonuncu ünsürünü qoşma material haqqında məlumat təşkil edir. Kitab, kitabça, albom, atlas, xəritə, qrammafon valları, maqnitofon lentləri və s. qoşma material hesab edilə bilər.

Qoşma material haqqında məlumatdan əvvəl üstəgəl (+) işarəsi tətbiq edilir. Məsələn:

210 s.: il.; 30x20; 124 s.:şək.+ 2 DVD; 256 s.: əlavə (50 s.)

**6. Seriya sahəsi**. Seriya sahəsində sənədin seriyası və seriyalı nəşrin Beynəlxalq Standart Nömrəsi (İSSN) göstərilir. Məsələn:(Ədəbiyyatşünaslıq və dilcilik ser.) ; (Fortopiano üçün əsərlər. Seriya 1= Compositions pour piano. Seriya 1)

İSSN (İNTERNATIONAL SERIAL STANDART NUMBER) – seriyalı nəşrin Beynəlxalq standart nömrəsi yalnız informasiya mənbəyində göstərildiyi zaman biblioqrafik təsvirdə yazılır. Məsələn: İSSN 0201 – 7636

**7. Qeyd sahəsi.** Qeyd sahəsində kitab haqqında təsvirin digər sahələrində verilməyən əlavə məlumatlar əhatə olunur. Məsələn: əsas sərlövhə haqqında qeydlər, kitabın mətn dili, rezyume və s.

**8. Beynəlxalq Standart Nömrəsi (və ya onun alternativi) sahəsi və axtarış şərti təsvirin sonuncu sahəsi hesab edilir.** Sahə kitab mübadiləsi, kitab ticarəti və nəşriyyat statistikası, həmçinin də digər məqsədlər üçün zəruri məlumatları əks etdirir.

Standart nömrə sahəsində təsvirin obyektinə aid edilən beynəlxalq standart nömrələr göstərilir. Kitabın Beynəlxalq Standart Nömrəsi (İSBN – İnternational Standart BOOK Number) beynəlxalq və milli agentlik tərəfindən təyin edilərək kitabı digər nəşrlərdən fərqləndirən əsas əlamətlərdən biri hesab edilir.

Nömrə beynəlxalq miqyasda tətbiq edilən abbereviaturadan – (sözlərin baş hərfləri ilə müxtəsər yazılışı). – İSBN 5-7975 – 0063 – 9 və rəqəmlərdən ibarətdir.

Açar sərlövhə – seriyalı nəşrlərə İSSN təyin edilməsi prosesində onların identifikasiyası və qeydiyyatı üçün verilən sərlövhədir. Məsələn: İSSN 0304 – 0352 = İFLA yournal

Axtarış şərti haqqında məlumatda sənədin qiyməti və obyekti əldə etmək məqsədilə digər informasiyalar haqqında məlumat verilir. Məsələn : 15 m.

Sahənin ünsürünə aid edilən digər izahedici məlumatlar kiçik mötərizə içərisində göstərilir.

İSBN 5-89600-114-2: 10 m. (cildli)

**Nəticə.**

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Milli Kitabxanası tərəfindən işlənib, təqdim edilən və Azərbaycan Respublikasının Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 20.11.2013 türixli 119 saylı əmri ilə təsdiq edilib qüvvəyə minən AZS 754-2013 "Biblioqrafil yazı. Biblioqrafik təsvir " adlı dövlət standartında Respublikada çap edilən bütün sənəd növləri nəzərə alınmışdır. Standartda birsəviyyəli, çoxsəviyyəli, analitik təsvirlərin tərtibi metodikası kifayət qədər izah edilmişdir.



Standartda kitabxana işçilərinə kömək məqsədilə biblioqrafik yazı nümunələri verilmişdir. Burada bir, iki, üç müəllifli nəşrlərin müəllif və sərlövhə üzrə təsvirinə, rəsmi sənədlərin təsvirinə, çoxcildli və seriyalı nəşrlətinin təsvirinə, dövri nəşrlərin, izonəşrlərin, kartoqrafik nəşrlərin, not nəşrlərinin və digər nəşrlərin təsvirinə yer ayrılmışdır. Lakin demək lazımdır ki, hazırkı standartda biblioqrafik təsvirin yalnız mətni nəzərə alınmışdır. Biblioqrafik təsvirin başlığı haqqında isə heç bir məlumat verilmir. Halbuki, biblioqrafik təsvir iki hissədən (biblioqrafik təsvirin başlığı, biblioqrafik təsvirin mətni) ibarətdir. Yəqin ki, qeyd etdiyimiz məsələ gələşəkdə nəzərə alınacaq.

Onu da qeyd edək ki, hazırda Respublikada əksər kitabxanalarda kataloqlaşdırılma prosesləri məhz MARC formatı əsasında təşkil edilən AKİS-lər (VTLS, VİRTUA, Liber, Librau, İRBİS və s.) vasitəsilə həyata keçirilir və buradakı təsvirlər də Beynəlxalq biblioqrafik təsvir qaydalarına əsaslanır. Ənənəvi kataloqlarda isə biblioqrafik təsvirlər "Sənədlərin biblioqrafik təsviri" (1984) standartı üzrə tərtib edilir ki, bu da 30 illik bir dövrü əhatə edir. Bundan əlavə kitabxanalarda təşkil edilən elektron kataloqlarla ənənəvi kataloqlarda verilən biblioqrafik təsvirlər arasında böyük fərqlər yaranır. Yaxşı olardı ki, hazırkı standartın tətbiqini həyata keçirmək məqsədilə bir sıra metodik vəsaitlər hazırlanıb çap ediləydi. Respublika kitabxanalarına daxil olan sənədlər içərisində elektron informasiya resursları da xüsusi yer tutur. Elektron nəşrlər həm resurs kimi, həm də ayrıca elektron sənəd kimi (məsələn, CD-ROM kitablar, jurnallar, soraq nəşrləri və s.) hazırlana bilər. Elektron resurslar ənənəvi sənəd formalarından bir sıra xüsusiyyətlərinə görə fərqləndiyi üçün onların müxtəlif növlərinə dair standartları işlənib hazırlanması da zəruridir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə Dövlət proqramı // Kitabanaşünaslıq və biblioqrafiya.- 2008.-N2.-S.7-30.
2. 2.Azərbaycanda kitabxanaların fəaliyyətininin yaxşılasdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (20 aprel 2007-ci il) // Azərbaycan.- 2007.- 21 aprel.
3. 3.AZS 754-2013. Biblioqrafik yazı. Biblioqrafik təsvir: Ümumi tələblər və tərtib qaydaları.-Bakı: Azərb. Resp.Standartlaşdırma, Metroloqiya və Patent üzrə Dövl.Komitəsi, 2013.- 60 s.
4. 1. Бахтурина,Т.А. Новый стандарт по библиографическому описанию: К внедрению ГОСТ- а 7.1 – 2003 // Библиография. – 2004. - №1. – С. 23-36.
5. ГОСТ 7.80 – 2000. Библиографическая запись. Заголовок: Общие требования и правила составления. – Минск, 2000. – 8 с.
6. ГОСТ 7.1 – 2003. Библиографическая запись. Библиографическое описание: Общие требования и правила составления. – М.: Изд-во стандартов, 2004. – 48 с. – (Межгосударственный стандарт).
7. 7.Mustafayeva S.M. Biblioqrafik təsvir nəzəriyyəsinin inkişafı // Kitabanaşünaslıq və biblioqrafiya.- 2007.-N2.-S.93-99.

8. Mustafayeva S.M. Sənədlərin biblioqrafik təsvirində müasir təsvir qaydalarının tətbiqi (1-ci məqalə) // Kitabanaşünaslıq və biblioqrafiya.- 2007.- N1.-S.40-45.
9. Mustafayeva S.M. Sənədlərin biblioqrafik təsvirində müasir təsvir qaydalarının tətbiqi (2-ci məqalə) // Kitabanaşünaslıq və biblioqrafiya.- 2008.- N2.-S.29-33.

*Məqalə BDU-nun Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının aprel 2015-ci ili16 tarixli 7 saylı iclasında müzakirə edilmiş və çapa məsləhət görülmüşdür.*
*Rəyçilər: prof. X.İ.İsmayılov, dosent S.A.Xələfova*